Rückkehr | Kinder

## Dəstək

Uşağınızı onu maraqlandıran şeyləri etməyə və fəal olmağa ürəkləndirin. Uşaq vətənində də əvvəllər sevdiyi və elədiyi şeyləri tapsa, bu, şüurunun inkişaf etməsinə imkan yaradacaq və onun yeni yerə öyrəşməyi sürətləndirəcəkdir.

## Almaniyaya əlaqə

Uşaq bunu istəyirsə, onu Almaniyadakı dostları ilə əlaqə saxlamağa ürəkləndirin. Bunu edərkən uşaq əvvəllər yaşadığı ölkə üçün daha az darıxacaq və həm də onun üçün yeni dostlar tapılanacan yaşanılacaq vaxtı keçirməyə daha asan olacaqdır.

## Səbirli olmaq

Qayıdış uşağınızın həyatında ediləcək çox böyük bir addımdır. Səbirli olun və ona yeni həyata öyrəşməyə vaxt verin.

İşi maliyyələşdirən təşkilat GlücksSpirale VON LOTTO

Bayerisches Rotes Kreuz

**Yardımı və məlumatı burada ala bilərsiniz:**

Stempel der Beratungsstelle

**Bayerisches Rotes Kreuz**
**Kreisverband Nürnberg-Stadt**

Sulzbacher Straße 42
90489 Nürnberg
Tel.: 0911 5301-0
Fax: 0911 5301-298
E-Mail: info@kvnuernberg-stadt.brk.de
www.kvnuernberg-stadt.brk.de

© 2013 · 13-0138-RPF · Foto: ©Fotolia

Bayerisches Rotes Kreuz
Kreisverband Nürnberg-Stadt
Abteilung Soziale Arbeit

Bayerisches Rotes Kreuz

Rückkehr | Kinder

# Uşaqlarla qayıdış

## Uşağınıza yeni başlanğıcı necə yüngülləşdirə bilərsiniz



Rückkehr | Kinder

**Uşağınıza Almaniyadan vidalaşmanı və vətəninzdə yeni başlanğıcı necə yüngülləşdirilməsi üçün sizə burada bəzi məsləhətlər vermək istəyirik:**

Uşaqlar qayıdışa böyüklərdən fərqli olaraq başqa cür baxırlar.

Onlar vətənlərini kiçik uşaqlar kimi tərk etmişdilər. Bəziləri isə bəlkə hətta Almaniyada anadan olublar. İndi də onlar böyümüş və əvvələr onların bilmədiyi şeylərə yiyələniblər. Həmin şeylərin bəziləri vətəndə olduğu kimi deyil. Uşağınız Almaniyada nə qədər çox yaşamışdırsa, bir o qədər də az o, əvvəki vaxtları xatırlada bilir. Bu səbəbə görə ona qayıdış zamanı çox şeylər yeni və qərib gələcək. Yeni şeylər maraqlı və cəlbedici, amma həmçinin həm də qorxuya da səbəb ola bilər.

Bəzi uşaqlar üçün qayıdış elə ağırdır ki, onların davranışı da (məsələn, aqqresivlik, təklikdə qalma istəyi, enurez, məktəbdə pis oxuma) dəyişilir.

## Qayıdış haqqında açıq danışın

Uşağınıza sizin qayıtma planlarınızdan mümkün qədər tez deyin. Bunun səbəbləri haqqında uşağınızla acıq danışın. Çünki uşaqların fantaziyaları çox zəngindir, əks halda onlar özü özləri üçün hansısa yanlış səbəbləri uyduracaqlar.

## Hazırlaşdırma

Uşağınıza vətəninizdən, orada yaşayan insanlardan və mədəniyyətdən  danışın, bu yolla uşağınız oradakı həyat tərzini yenə yada salacaq. Bəzi şeylər orada başqa cür-dür, uşağınız nə qədər çox buna hazırlansa, bir o qədər də tez o, vətənində çətinliklərə öyrəşəcəkdir.

## Sənədlər

Qayıdışdan əvvəl mümkün qədər tez uşağınızın ən vacib sənədləri ilə məşqul olun və lazım olduğu təqdirdə onları tərcümə elətdirin. Almaniyada saxta ad-soyadla yaşadığınız halda sənədlərdə adları və soyadları düzəltdirin. Calama pasportu və həkim sənədləri. Məktəb şəhadətnamələri və məktəbdəki təhsil haqqında arayış. Doğum haqqında şəhadətnamələr.

## Vidalaşma

Vətəninizdə yeni başlanğıc üçün Almaniyadan ciddi şəkildə vidalaşmaq çox vacibdir. Məhz buna görə uşağınızı ürəkləndirin ki, o, yoldaşlarına, burada öyrəşdiyi yerlərə və məktəbinə birdəfəlik əlvida desin.

## Məktəb

Mümkün qədər tez uşağınızın hansı məktəbdə oxuyacağını öyrənin və vətəninizə qayıdıb onu dərhal məktəbə düzəldin. Həmçinin onu da soruşun ki, bunun üçün hansı sənədlər lazımdır və uşağınız yeni məktəbdə oxumaq üçün nəyi əlavə öyrənməlidir. Uşağınız nə qədər tez və yaxşı yeni məktəbdə oxusa, bir o qədər də tez o, həmin məktəbə öyrəşəcək.

## Dil

Hələ ölkəmizi tərk etməmişdən əvvəl uşağınızla ana dilinizdə oxumağı və yazmağı öyrənin, bu, ona yeni məktəbə daha tez alışmağa imkan yaradacaq.

## Düzgün gün rejimi

Qayıdış çoxlu dəyişiliklərə səbəb olur. Məhz indi uşağınıza möhkəm sabitlik lazımdır. Düzgün gün rejimi, adət olunmuş ayinlər, uşağın hələ Almaniyadan tanıdığı əşyalar stabillik yaradır və uşağınıza arxayınlıq verəcəkdir.

## Maraqlarına dəstək vermək

Uşağınızı onu maraqlandıran şeyləri etməyə və fəal olmağa ürəkləndirin. Uşaq vətənində də əvvəllər sevdiyi və elədiyi şeyləri tapsa, bu, şüurunun inkişaf etməsinə imkan yaradacaq və onun yeni yerə öyrəşməyi sürətləndirəcəkdir.